ədalət.-2016.-13 dekabr.-.4.

# UNUTMADIĞIMIZ, UNUDA BİLMƏDİYİMİZ ŞAİR - ALİM MƏHƏRRƏMLİ

**Səhər-səhər "Azərbaycan" nəşriyyatına işə gələndə divarda şəklini gördüm. Şəklin avltında da belə bir yazı: "Alim Məhərrəmli. 15.XII.1961.-25.X.2010. Allah rəhmət eləsin". Və lövhənin aşağısında bir cüt qırmızı qərənfil.**

Başımda elə bil ildırım çaxdı. Donub qaldım şəklin önündə. Hələ dünən liftin qarşısında üz-üzə gəlmişdik. Çox sıxıntılı, mükəddər görünürdü. Elə bil kədərin, qəmin əlindən baş götürüb hara gedəcəyini bilmirdi. Dilində bu sözlər sızıldayırdı: "Onun ölümündə özümü günahkar bilmirəm. Amma lazımsız sorğu-suallar, apargətirlər ürəyimi partladacaq deyəsən". (Mərhum bir həftə idi ki, ikinci dəfə ailə həyatı qurmuşdu. Ancaq bu evlilik faciəylə bitdi. Təzə gəlin özünü dənizə ataraq, intihar etdi).

Mən də təsəlli xatirinə: "özünü topla, bilirəm, çətindir, bu yaşda evlən, sonra bu boyda uğursuzluqlarla qarşılaş. Açığı, tab gətirəsi, dözüləsi dərd deyil. Amma yenə də güclü olmalısan", - dedim.

Yenə fikrim qarışdı. İxtiyarsız şəklin qarşısında ayaq saxlayanlardan soruşdum: "Axı bu necə oldu?" Dedilər: "Elə gecə yatıb, səhər də qalxmayıb. Allah rəhmət eləsin!.."





İş otağıma qalxdım. Zəng edib yaxınlarına başsağlığı vermək istədim. Qəlbimi qəmli bir duyğu yandırdı. Axı bu bədbəxtin nə evi var idi, nə də ailəsi. Hara zəng vurasan? Kövrəldim.

Mənim Alim Məhərrəmli ilə ilk tanışlığım da elə şəkil vasitəsilə olmuşdu. Nahid müəllim Musa Yaqubdan xatirə danışırdı. Axtarıb bir şəkil çıxartdı. Şəkildə Nahid müəllim, Musa Yaqub, Alim Məhərrəmli, Disuz, Maarif Soltan bir çay süfrəsi arxasında oturmuşdular.

Nahid müəllim:

- Bax, bu cavan oğlan şair Alim Məhərrəmlidir. İstedadlı şairdir. Ona ilk xeyir-duanı da həmyerlisi Musa Yaqub verib. - Sonra da bunları söylədi. - Bir gün bizi öz kəndlərinə qonaq apardı. Elə bil dünyanı vermişdilər ona. Sevincinin həddi-hüdudu yox idi. Həyətlərində gözəl bir bağçaları var idi. Elə həmin bağçada qonağı olduq Alimin. Bizim gəlişimizi elə bil toy-bayrama çevirmişdi. Anası yaxşı bir süfrə açdı. Özünün təndirdə bişirdiyi çörəyi, həyətdə bəslədiyi çolpanın qızartmasını, qatığı, pendiri, mer-meyvəni, samovar çayını düzdü süfrəyə. Xeyli oturduq, yedik-içdik, söhbət etdik. Durub gedəndə Alim anasına yaxınlaşdı: "Ana, kənd payını əsirgəmə qonaqlarımızdan ha!", - dedi. Ana da qış üçün tədarük gördüyü quru meyvələrdən, qatıqdan, qaymaqdan yığıb bizə pay qoydu. Bax, elə bu şəkil də o vaxt çəkilib. Həmin həyətdə.

Alim mənim ilk kitabımın redaktoru oldu. Ruhlu, ilhamlı şair idi. Qəzetlərdə tez-tez dərc edilən publisistik yazıları, tərcümələri də əl-əl gəzirdi. Onun həyatda yoxluğuna indi də inana bilmirəm. Bu kədərli yazımı ona həsr etdiyim şeirimlə bitirmək istəyirəm.

### *GETMİSƏN*

**Mərhum şair qardaşım**
**Alim Məhərrəmliyə**

**Dünya çox incidə bilərdi səni,**
**Bəlkə düz etmisən, çıxıb getmisən.**
**Qısa bir ömürlə sınadı səni,**
**Yoxsa bu dünyanı yıxıb getmisən?**

**O zərif vücuda sığmırdı ürək,**
**Yükü ağır idi, çəkmirdi ürək.**
**Sorğudan, sualdan bezmişdi ürək,**
**Canını dişinə sıxıb getmisən.**

**Yaman tez çəkildi duman dağlara,**
**Qara baxta sevdalı yox ağlaya.**
**Yuvan da yox qapısını bağlaya,**
**Bir oğrun sel kimi axıb getmisən.**

**Havanı çaldılar, düşdün oyuna,**
**Fələk yaman saldı səni toruna.**
**Oynayan olmayıb yoxsa toyuna,**
**Bu dərd ürəyini sıxıb, getmisən.**

**Ölümün Tanrıya aparan yolmuş,**
**Çiçək arzuların açmadan solmuş,**
**Şəklinə baxıram gözləri dolmuş,**
**Dünya pəncərəymiş, baxıb, getmisən.**

Musa Yaqub: Alim Məhərrəmlini çox kədərlə xatırlayıram. Onunla ilk tanışlığım uzun illər bundan öncə - rayon qəzetində işlədiyim vaxtlara çəkir.

Bir gün əlində dəftərçə cılız, arıq, utancaq bir oğlan otağıma daxil oldu: "Musa müəllim, mən Murad Məhərrəmovun qardaşıyam (Murad müəllim İsmayıllı rayon radiosunda işləyirdi), şeirlərimi gətirmişəm. Oxuyub fikrinizi bilmək istərdim".

O vaxtlar "Zəhmətkeş" qəzetinin nəzdində "Dağ çiçəkləri" ədəbi məclis fəaliyyət göstərirdi. Həmin məclisdə cənc şairlərə imkan yaradılırdı ki, özlərini təsdiq etsinlər. Maarif Soltan, Baba Vəziroğlu və bir çoxları bu məclisin yeritmələridirlər. Mən də: "Oğul, şeirlərini götürüb məclisə gəl, orada oxuyarsan", - dedim.

Ertəsi gün Alim məclisdə şeirlərini təqdim etdi. Doğrusu, şeirlərdəki duyğular, insani hisslər, elə detallar, oxşamalar var idi ki, heyran olmaya blməzdim. Hətta sual da verdm ki:

- Bala, bu şeirləri özün yazmısan?

Çünki Alimin şeirlərindəki geniş diapazona malik dərin fəlsəfi fikirlər bu sualın yaranmasına səbəb olmuşdu. Açığı, bu şeirləri həyatım boyu aldığım dəyərli hədiyyələrdən sayıram. Bəyəndiyim şeirdən üçünü seçib "Azərbaycan gəncləri" qəzetinə göndərdim və "Uğurlu yol!" yazdım O vaxtlar kimin sözüyləsə yazıların çap olunması bir az çətin idi.

***

Alimin şeirləri özü-özünə yol açdı. Şeirlər o qədər gözəl, məzmunlu, hiss və duyğularla zəngin idi ki, qısa zaman kəsiyində müəllifinin tanınmasına səbəb oldu.

Alim şeirlə nəfəs alırdı, şeirlə yaşayırdı. Elə şeirlərində də öz portretini yarada bilmişdi. Məcnunsayaq qəribə bir şair həyatı idi onun həyatı. Aydın Səlimzadəni, Eldar Baxışı və bir çoxlarını əlimizdən vaxtsız alan içki hərisi idi Alim də... Elə gün olurdu danlayırdım, məsləhətlər verirdim, gözəl gələcəyə malik şair olduğunu söyləyirdim. Tərifləyirdim ki, bəlkə əl çəkə bu vərdişindən. Amma qorumaq olmurdu onu. Necə ki, qoruya bilmədik.

Çox hayıf, yaxşı şair idi.

Dostu Məhəmməd Haqqı: Elə bil Musa müəllim ürəyimi oxudu. Düz buyurdu - qoruya bilmədik Alimi. Bərk dost idik. O cılız vücudunda böyük ürək gəzdirirdi. Heç yerdə qərar tutub, məskən sala bilmirdi. Böyük istedad sahibi idi. İstedadından başqa heç nəyi yox idi. Bəlkə istedadının qədrini bilsəydi, cild-cild kitabları olardı.

Məhəmməd Haqqı Alimin ona yazdığı son iki şerini də gətirmişdi. Bu, Alimin vida şeirləri idi.

**Hardasan,hardasan, evi tikilmiş?**
**Göylərə üz tutub ağrılarını,**
**Tanrıya söyləyən tənha qurd kimi**
**Səni gözləyirəm bayaqdan bəri,**
**Səni gözləyirəm son ümid kimi,**
**Hardasan, hardasan, evi tikilmiş?**

**Haram var, kimim var, üzümü tutum?**
**Ocağım sönübdü külün içində**
**Əgər bəxt yazılır bir qarış yerə**
**Alından başlamış, əlin içində**
**Bəs mənim yazılan yazım hardadı?**
**Hardadı oturub günümü ağlayan?**
**Məni bu dünyaya heç nə bağlamır,**
**Bəs nədi dünyada məni saxlayan?**
**Səninlə başlayan adamlardısa,**
**Adam şəklində ağ inamlardısa,**
**Hardasan, hardasan evi tikilmiş?**
**Yüz ildi özümlə didişirəm hey,**
**Yüz ildi eləcə qeylü-qaldayam.**
**Sən məni görməsən yaxşıdı elə,**
**Başqa bir görkəmdə,başqa haldayam.**
**İndi İsa kimi ruhum çarmıxa,**
**Elə öz əlimlə qəfil çəkilmiş,**
**Ürəyim ağzımdan duşəcək indi,**
**Hardasan, hardasan evi tikilmiş?**

**Boynumda nə qədər haqqı-sayın var,**
**Yenə əvvəlki Alim olmağa gəldim.**
**Damıb ürəyimə ölüb gedəcəm,**
**Səndən halallıq almağa gəldim.**
**Gəldim ki mən sənə söz deyəcəkdim,**
**Eləcə dedilər gəlməyəcəksən.**
**Bax elə həmin vaxt, bax elə o an**
**Bütün nə vardısa çıxdı yadımdan**
**Gəlmədin... hardasan... sonluq bu imiş...**
**Hardasan, hardasan evi tikilmiş?**

### *Gedəcəm*

**Bunun bir sonluğu olmalıydı ki,**
**Əzəli var idi bildiyin qədər.**
**Kimin şəbri yoxdu - təkcə Alimin,**
**Heç kim də ölməyib, öldüyüm qədər.**
**Bu bütöv, bu ala, para rənglərin,**
**Yeddiyə bölünən sıra rənglərin,**
**Rəngi silinmişdi qara rənglərin.**
**Silsəydim gözümü sildiyim qədər.**
**Açıb dərdlərimi önə sərimmi?**
**Onu bir olarmı ondan birimin**
**Heç kim ağlamadı mənim dirimi**
**Mən özüm-özümə güldüyüm qədər.**
**Özümü-özümə sıxıb gedəcəm,**
**Nəyim var özümə yığıb gedəcəm,**
**Bezmişəm, dünyadan çıxıb gedəcəm,**
**Yolum var dönməyə gəldiyim qədər.**

İş otağımda Musa Yaqub, Vəli Xramçaylı və Alimin həmyerlisi, yaxın dostu Məhəmməd Haqqı ilə birlikdə Alimi yad etdik. Elə bil dünən idi. Elə bu otaqda Musa Yaqub, Nahid müəllim və mən yenə Alimdən danışırdıq. Nahid müəllim: "Ay Musa, sən bu şairi hardan tapmısan? Gözəl şairdir, gözəl də gələcəyi var".

Amma Nahid müəllim hardan biləydi ki, Alim xoşbəxtliyin dəqiq ünvanını bilmədiyinə görə, bədbəxtliyin qapısını açdı. Necə ki, dahilərdən biri demişdi: "Bədbəxtlik onda deyil ki, xoşbəxtliyə rast gəlmirsən. Bədbəxtlik ondadır ki, xoşbəxtliyi əldə saxlaya bilmirsən".

**Yaşasaydı, bu il Alimin 55 yaşı olacaqdı. Özündən sonra qoyub getliyi şeirləri qaldı. Və mən inanıram ki, bu şeirlərin ölüm tarixi olmayacaq. Alim şeirlərində yaşayacaq.**

**NƏZAKƏT**